# MƏMMƏDOV ELDAR HARUN OĞLU



Məmmədov Eldar Harun oğlu 10 yanvar 1968-ci ildə Bakı şəhərində müəllim ailəsində dünyaya göz açmışdır. 1974-cü ildə Bakıda 189 saylı orta məktəbin birinci sinfinə getmiş, 1982-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirmiş, sənədlərini C.Naxçıvanski adına Hərbi Məktəbə vermişdir. Sonra hərbi biliyini artırmaq üçün 1985-1989-cu illərdə Riqadakı Qırmızıbayraqlı Ali Hərbi-Siyasi Məktəbdə təhsil almışdır. Ali məktəbi bitirdikdən sonra SSRİ Silahlı Qüvvələrində qulluq etmişdir. Gənc leytenant E.Məmmədov, erməni işğalçıları Azərbaycana hücuma başlayanda raport yazaraq Vətənə qayıdır və yenicə yaradılan Sərhəd Qoşunlarında xidmətə başlayır. Özünü bacarıqlı və peşəkar zabit kimi göstərdiyinə görə ona baş leytenant rütbəsi verilir. 1991-ci ildə Bakıda raket qoşunlarına siyasi rəhbər təyin edilmişdir. 1992-ci il martın 24-ündə leytenant Eldar Məmmədov DSMK Hərbi İnşaat İdarəsinə bölük komandiri vəzifəsinə təyin olunur. O, 1993-cü ildə Sərhəd Qoşunları İdarəsinin könüllülərdən ibarət batalyonu tərkibində Ağdərə istiqamətində gedən döyüşlərin iştirakçısı olur, dəfələrlə qeyri-adi şücaət göstərir. Ağdərədə mərdliklə vuruşan E.Məmmədov Mehmanə kəndinin müdafiəsi zamanı düşmənə ağır zərbələr vurmuşdur. 1993-cü il fevral ayının 24-də Kasapet kəndi yaxınlığındakı yüksəkliyin müdafiəsində də cəsur döyüşçü düşmənə ağır zərbələr endirmişdir. Həmin gün azğınlaşmış erməni quldurları bu yüksəkliyi ələ keçirmək üçün güclü hücuma keçdilər. Eldar yüksək döyüş bacarığı göstərərək düşmən hücumlarının qarşısını ala bildi. Ancaq çox keçmədi ki, düşmən qüvvə toplayaraq yüksəkliyi almaq üçün yenidən hücuma keçdi. Baş leytenant ağır yaralı olmasına baxmayaraq, düşmənin istiqamətini özünə cəlb edərək erməni quldurlarının əsas qüvvələrimizin arxasına keçməsinə imkan vermədi. Bu qeyri-bərabər döyüşdə Eldar Məmmədov düşmənin xeyli canlı qüvvəsini məhv etdi. Lakin özü də bu döyüşdə qəhrəmancasına həlak oldu. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. 1993-cü ildə Səbail rayonu 189-190 saylı orta məktəbə Eldar Məmmədovun adı verilib. Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1994-cü il tarixli 247 saylı fərmanı ilə baş leytenant Məmmədov Eldar Harun oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 oktyabr 1995-ci il tarixli qərarına əsasən, MTN SQBİ-nin Göytəpə Sərhəd Dəstəsinin “N” saylı sərhəd zastavasına Azərbaycanın Milli Qəhrəmanı Eldar Harun oğlu Məmmədovun adı verilmişdir.